**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

# ROMANTİZM ƏDƏBİ CƏRƏYANI
***fənninin***

# PROQRAMI

**(Ali filoloji təhsilin magistratura pilləsi üçün)**

**İstiqamət: 060201 - Filologiya**
**İxtisas: Ədəbiyyatşünaslıq (Ədəbiyyat nəzəriyyəsi)**

**Bakı Dövlət Universitetinin rektorunun 07.03.2019-cu il tarixli R-25 saylı əmri ilə proqram kimi çapa imzalanmışdır.**

**Bakı – 2019**

**Tərtib edən:** ***Mətanət Oruc qızı Həsənova***
*Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru*

**Elmi redaktor:** **Sənan İbrahimov**
*Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru*

**Rəyçilər:** **Yeganə İsmayılova**
*Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru*

**Sevinc Qocayeva**
*Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru*

©BDU, 2019

# İZAHAT VƏRƏQİ

Filologiya fakültəsinin magistratura pilləsi üçün nəzərdə tutulan bu ixtisas kursunda tədris bakalavr mərhələsindən əsaslı şəkildə fərqlənir. Müxtəlif nəzəri problemlər və bu problemlər konktekstində romantizmin konkret sənətkarların yaradıcılığında təzahür formaları, mahiyyəti, oxşar və fərqli cəhətləri ətraflı şərh və təhlil olunur.

Tədris prosesində köhnə sxolastik müddəa və prinsiplərdən imtina edilir, millilik, tarixilik, obyektivlik, müasirlik kateqoriyaları və buradan doğan elmi-nəzəri tələblər əsas götürülür.

Fənnin tədrisi zamanı müasir ədəbiyyatşünaslıqda geniş yayılan tarixi-tipoloji və tarixi-müqayisəli təhlil metodları əsas götürülür. Fənnin tədrisində konkret sənətkarların yaradıcılığına təkcə müxtəlif dövrlər əsasında deyil, poetika nöqteyi-nəzərindən də yanaşılır, romantizmin bir cərəyan kimi poeziyada, nəsrdə və dramaturgiyada mövqeyi aydınlaşdırılır.

Azərbaycanda romantizmin nümayəndələrinin yaradıcılığı metod və üslub xüsusiyyətlərinə görə də dəyərləndirilir.

**Romantizm ədəbi cərəyanı fənninin tədrisinə ayrılan saatların mövzular üzrə bölgüsü**
**(fənn üzrə saat xəritəsi)**

| № | Mövzular | Cəmi | Müh. | Məş. |
|---|---|---|---|---|
| 1. | Giriş. Ədəbiyyat nəzəriyyəsində ədəbi cərəyanların, o cümlədən romantizmin yeri | 45 s. | 2s. | |
| 2. | Aristotelin "Poetika" əsərində olan əsas nəzəri müddəalar | | 2s. | |
| 3. | Bualonun "Poeziya sənəti" əsərində sənətkar fərdiyyəti və istedadı haqqında | | 2s. | |
| 4. | Azərbaycan romantik ədəbiyyatının ilk qaynaqları | | 2s. | |
| 5. | Azərbaycanda romantizmin təşəkkülü | | 2s. | |
| 6. | Azərbaycan romantizminin təşəkkülü və inkişaf tarixi | | 2s. | |
| 7. | Realist və romantik inikas tiplərinin xüsusiyyətləri | | 2s. | |
| 8. | Azərbaycan ədəbiyyatında ədəbi cərəyanların növbələnməsi | | 2s. | |
| 9. | Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanın əsas xüsusiyyətləri | | 2s. | |
| 10. | Ədəbi metod, ədəbi cərəyan və ədəbi məktəb anlayışlarının oxşar və fərqli cəhətləri | | 2s. | |
| 11. | Azərbaycan ədəbiyyatında romantik poeziya | | 2s. | |
| 12. | Azərbaycan bədii nəsrində romantizm obrazlar sistemi kontekstində | | 2s. | |
| 13. | Azərbaycan romantik dramaturgiyasında obraz | | 2s. | |
| 14. | M.F.Axundzadənin ədəbi-tənqidi görüşləri | | 2s. | |
| 15. | H.Cavid, C.Cabbarlı, M.Hadi, A.Şaiq, Ə.Hüseynzadə və romantizm | | 2s. | |

**Yekun:** Proqram üzrə 15 mühazirə - 30 s.
8 məşğələ - 15 s.

# ROMANTİZM ƏDƏBİ CƏRƏYANI

**Giriş. Ədəbiyyat nəzəriyyəsində ədəbi cərəyanların, o cümlədən romantizmin yeri.** Mühazirədə ədəbiyyat nəzəriyyəsi fənninin obyekti, predmeti, o cümlədən ədəbi cərəyanların bu fənnin əsas kateqoriyalarından olması kimi məsələlərə aydınlıq gətirilir və romantizmin bir inikas tipi, metod, nəhayət, ədəbi cərəyan kimi ədəbiyyat tariximizə təsiri məsələləri açıqlanır.

Bir seçmə fənn olaraq romantizm ədəbi cərəyanının magistratura pilləsi üçün məqsədəuyğun olması və nəzəriyyə ixtisasına yiyələnənlər üçün onu dərindən öyrənməyin vacibliyi vurğulanır.

**Aristotelin "Poetika" əsərində olan əsas nəzəri müddəalar.** Mühazirədə bütün nəzəri məsələlərin ilk mənbəyinin Aristotel "Poetika"sına bağlandığı göstərilir. O cümlədən ədəbi cərəyanlardan biri kimi romantizmin öyrənilməsində də poetika əsas götürüldüyündən bu əsərin tədrisinin vacibliyi vurğulanır. Əsərin mahiyyəti, alimin irəli sürdüyü nəzəriyyələrin məğzi açıqlanır.

**Bualonun "Poeziya sənəti" əsərində sənətkar fərdiyyəti və istedadı haqqında.** Mövzuda görkəmli fransız nəzəriyyəçisi Nikola Bualonun şeir, şair, sənət və sənətkar məsələlərinə baxışı, müxtəlif ədəbi janrlara və nəzəri məsələlərə münasibəti açıqlanır. Bualo fikirlərindən sonrakı dövrlərdə sənətkarların necə yararlanması kimi məsələlər aydınlaşdırılır.

**Azərbaycan romantik ədəbiyyatının ilk qaynaqları.** Mühazirədə Azərbaycan romantik ədəbiyyatının ilkin qaynaqları olaraq qədim budda abidələrinə nəzər salınır ("Vessantara", "Yadqar Zareran" və s.)

Mani mətnlərinin romantik ədəbiyyatın ilk qaynaqları kimi əhəmiyyəti göstərilir (X əsrdə yazılmış "Hudud əl əməl" kitabı və s.).

Firdovsi "Şahnamə"sinin, şifahi xalq ədəbiyyatı nümunələrinin, Əsədi Tusinin "Gərşaspnamə" epopeyasının, Fəxrəddin Gürganinin "Vis və Ramin" poemasının, İsanın "Mehr və Vəfa" əsərinin, "Yusif və Züleyxa" əfsanəsinin romantik ədəbiyyatın ilkin qaynaqları kimi dəyəri açıqlanır.

**Azərbaycanda romantizmin təşəkkülü.** Mövzunun şərhi zamanı əvvəl dünya romantizmin təşəkkülünə qısa ekskurs edilir və onun digər ölkələrə təsir aspektləri açıqlanır. Məhz bu kontekstdə zəngin romantik ədəbi ənənələrə söykənən Azərbaycan romantizminin formalaşmasından bəhs olunur.

**Azərbaycan romantizminin təşəkkülü və inkişaf tarixi.** Mühazirənin əsas məqsədi Azərbaycan romantizminin təşəkkül və inkişaf tarixinə nəzər yetirmək, onun bir cərəyan kimi mütərəqqi cəhətlərini dəyərləndirməkdir.

**Realist və romantik inikas tiplərinin xüsusiyyətləri.** Realist və romantik inikas tiplərinin qədim və orta əsr ədəbiyyatımızda əksi, onların mahiyyəti, müvaze yaşaması kimi problemlərə mühazirədə tam aydınlıq gətirilir.

**Azərbaycan ədəbiyyatında ədəbi cərəyanların növbələnməsi.** Mövzu şərh olunarkən Azərbaycan ədəbiyyatında olan ədəbi meyil və cərəyanlar bir daha göz önündə sərgilənir. İntibahdan doğan ideya-estetik tələblərin bədii ifadəsi kimi tipik romantik obrazın özünü və mühitini dərk edən insan olduğu vurğulanır. Bu meyil və cərəyanların tarixi zərurətdən doğaraq növbələnməsi, bir-birinə təsir aspektləri kimi məsələlərə toxunulur.

**Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanın əsas xüsusiyyətləri.** Mühazirədə Azərbaycan ədəbiyyatında romantizmin əsas xüsusiyyətləri açıqlanmaqla yanaşı, onun dünya romantizmindən əsaslı şəkildə fərqləndiyi bir daha diqqətə çatdırılır.

**Ədəbi metod, ədəbi cərəyan və ədəbi məktəb anlayışlarının oxşar və fərqli cəhətləri.** Bu bölmədə inikas tipinin tədricən ədəbi metoda çevrilməsi prosesi göstərilir və metod üçün əsas olan nəzəri sistemin formalaşması konkret misallarla açıqlanır. Ədəbi cərəyan – onun metoddan və ədəbi məktəbdən fərqli və oxşar cəhətləri geniş təhlil olunur.

**Azərbaycan ədəbiyyatında romantik poeziya.** Bu hissədə romantizmin poetika xüsusiyyətlərinə nəzər salınır, poeziyada, nəsrdə və dramaturgiyada romantizm kimi başlıqlar altında aparılan tədqiqatdan, "Azərbaycan romantizminin poetikası" adlı monoqrafiyadan (müəllif prof. Kamran Əliyev) danışılır.

Romantiklərimizin poeziya yaradıcılığından gətirilən konkret nümunələr təhlil olunur və mahiyyəti dəyərləndirilir.

**Azərbaycan bədii nəsrində romantizm obrazlar sistemi kontekstində.** Mühazirədə Azərbaycan romantiklərinin yaradıcılığından ayrı-ayrı nümunələr təhlilə cəlb edilir və onların süjet-kompozisiya xüsusiyyətləri, obrazlar sistemi təhlil obyektinə çevrilir.

**Azərbaycan romantik dramaturgiyasında obraz**. Bu bölmədə Azərbaycan romantiklərinin dramaturgiya yaradıcılığı təhlil olunur və obrazlar sisteminə yeni təfəkkür işığında nəzər salınır. Xüsusilə H.Cavid dramaturgiyasından seçilib təhlilə cəlb edilən obrazlar yeni məfkurə işığında qiymətləndirilir.

**M.F.Axundzadənin ədəbi-tənqidi görüşləri**. Mühazirədə M.F.Axundzadənin ədəbi-nəzəri irsi ətraflı təhlil obyektinə çevrilir və konkret məqalələr timsalında sənətkarın ədəbi tənqidlə, forma-məzmun məsələləri ilə bağlı fikirləri şərh olunur, islam dinində islahat arzusu kimi problemlərə aydınlıq gətirilir, onun dram nəzəriyyəsinin mahiyyəti açıqlanır.

**H.Cavid, C.Cabbarlı, M.Hadi, A.Şaiq, Ə.Hüseynzadə və romantizm.** Bu icmal mühazirədə yekun olaraq romantizmin ayrı-ayrı nümayəndələri bir daha yada salınır. Onların hər birinin yaradıcılığına qısa ekskurs edilərək konkret əsər və obrazlar qarşılaşdırılır. Hər birinin fərdi, fərqli keyfiyyətləri, yəni yaradıcılıqlarındakı üslub fərdiliyi göz önündə sərgilənir.

## ƏDƏBİYYAT


1. Aristotel. Poetika. B., 2006.
2. Arif M. Seçilmiş əsərləri. Üç cilddə, B., 1967, 1968,1970.
3. Axundov A. Şeir sənəti və dil. B., 1980.
4. Axundov M.F. Əsərləri, III cild, B., 1961.
5. Babayev B. Bədii ədəbiyyatda tipiklik. B., 1992.
6. Belinski V.Q. Seçilmiş əsərləri. B., 1948.
7. Borev Y. Estetika. Moskva, 1988.
8. Bualo. Poeziya sənəti. B., 2006.
9. Cabbarlı C. Əsərləri, III cild, B., 1969.
10. Cavad Heyət. Ədəbiyyatşünaslıq. B., 1996.
11. Cəfərov M.C. Azərbaycan ədəbiyyatında romantizm. B., 1966.
12. Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı, 1977.
13. Əlimirzəyev X. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. B., 2008.
14. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. B., 2012.
15. Haqverdiyev Ə. Seçilmiş əsərləri, II cild, B., 1978.
16. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. B., 1996.
17. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. B., 1961.
18. Hüseynov T. Söz – tarixin yuvası. B., 2000.
19. Köçərli F. Seçilmiş əsərləri. B., 1963.
20. Qarayev Y. Realizm: sənət və həqiqət. B., 1963.
21. Qasımzadə Q. Ədəbiyyatda millilik və beynəlmiləllik. B., 1982.
22. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsu. B., 2008.
23. Quliyuev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyalar. B., 2012.
24. Quliyeva M. Klassik şərq poetikası. B., 1991.
25. Mir Cəlal. Klassiklər və müasirlər. B., 1973.
26. Mir Cəlal, Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. B., 2005.
27. Məmmədquluzadə C. Əsərləri, III cild, B., 1966.
28. Mütəllimov T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası. B., 1988.
29. Pospelov Q.N. Teoriya literaturı. Moskva, 1978.
30. Salmanova Z. XX əsr şeirində bədii gülüş. B., 1994.
31. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. B., 2012.
32. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. B., 1984.
33. Timofeyev L.J. Osnovı teorii literaturı. Moskva, 1976.
34. Vurğun S. Əsərləri, VI cild, B., 19

HƏSƏNOVA MƏTANƏT ORUC qızı
(SARAÇLI)

# ROMANTİZM ƏDƏBİ CƏRƏYANI

Ali məktəblər üçün proqram

Yığılmağa verilib: 15.04.19. Çapa imzalanıb: 02.05.19
Format 60x84 1/16. F.ç.v. 0,5 Sifariş 50.
Kağız əla növ. Tiraj 100 nüsxə. Qiymət müqavilə ilə.

***"Politex" MMC-nin mətbəəsi***